**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**MƏHƏMMƏD FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU**

*Əlyazması hüququnda*

**SEYİD CAMAL MEHDİ oğlu GÜLŞƏNİ**

# SƏDRƏDDİN KONYƏVİNİN DİNİ-FƏLSƏFİ BAXIŞLARI

**İxtisas: 7213.01-Dinşünaslıq**

Fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2018**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Farsdilli əlyazmaların tədqiqi şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Möhsün Zellabdin oğlu Nağısoylu**
**akademik**

**Rəsmi opponentlər:** **Nəsib Cümşüd oğlu Göyüşov**
**filologoya üzrə elmlər doktoru**

**Aqil Muxtar oğlu Şirinov**
**ilahiyyat üzrə fəlsəfə doktoru**

**Aparıcı təşkilat:** **AMEA Fəlsəfə İnstitutunun "İslam fəlsəfəsi" şöbəsi**

Müdafiə "___" _______ 2018-ci il saat___-da Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun nəzdində Birdəfəlik Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az-1001. Bakı şəhəri, İstiqlaliyyət küçəsi,26.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat"____"___________2018-ci ildə göndərilmişdir.

Dissertasiya Şurasının elmi katibi, Z.A.Əbilova
fəlsəfə üzrə elmlər doktoru

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Bəşər övladının bu dünyada çəkdiyi iztirablar onun həyatın mənasını axtarıb tapmağa səy göstərməsinə səbəb olmuşdur. Həyatın mənası və məfhumu özünü tapmaq, tanımaq və özünə müraciət deməkdir. Lakin təəssüf ki, zəmanəmizin insanları Tanrıya aparan yola qədəm basmaq zövqündən məhrumdurlar. Ekzistensializmin banisi, məşhur Danimarka filosofu Seren Kyerkeqor insanı Tanrıya doğru aparan pilləli yol kimi üç mərhələni: estetik, etik və dini mərhələləri qeyd edir:

Dissertasiyanın mövzusu islam alimləri arasında özünəməxsus yer tutan Sədrəddin Konyəvinin dini-irfani baxışlarının şərhidir. Sədrəddin Konyəvi islam tarixində təfsir, hədis, kəlam və fəlsəfə sahəsində böyük və görkəmli alim, mütəsəvvif və ən əsası "kamil insan" kimi məşhur olmuşdur. Bununla yanaşı, dahi alim daha çox bütün insanlığa xitab etmiş İbn Ərəbinin Əkbəri nəzəriyyəsinin şərhçisi, dünyanı bu nəzəriyyənin açıqlaması ilə tanış etmiş bir şəxsiyyət kimi tanınır. İbn Ərəbi kimi bir mütəfəkkirin insanlığa, bəşəriyyətə əmanət və hər iki dünyanı əhatə edən bir həyat dərsi olaraq qoyub getdiyi əsərlərinin, bu əsərlərdəki gizli və anlaşılması çətin olan məqamların şərhini vermiş Sədrəddin Konyəvi yaradıcılığı varlıq, yaradılış, insan, kamil insan, bəndə - Allah münasibətləri və ümumiyyətlə, özünü və Yaradanı dərk etmək istəyən hər kəs üçün böyük əhəmiyyət təşkil edir.

Həm sağlığında, həm də özündən sonra əsrlər boyu elmə böyük təsiri olmuş Konyəvinin düşüncə dünyasının dünya səviyyəsində araşdırılmasına böyük tələbat vardır. Belə ki, Konyəvinin fikir dünyasında zahiri və batini, əqli və nəqli elmlərin hamısı toplanmışdır və bu fikirlər o zaman və hətta sonrakı dövrü, ən əsası yaradılış sirlərinin gizli məqamlarını müəyyən dərəcədə işıqlandıran bir qaynaq hesab olunur.

İslam dünyasının bir parçası olan Azərbaycanda da islam irfanının öyrənilməsi böyük aktuallıq kəsb edir. İslam irfanı

əsrlər boyu bir çox dahi mütəfəkkir və alimlərin diqqətini cəlb etmiş, bu sahədə çoxsaylı araşdırmalar aparılmışdır. Lakin buna baxmayaraq, irfanın bir çox nəzəri və təzadlı məsələləri hələ də yetərincə şərh olunmamışdır. Bu baxımdan əsas mövzusu islam irfanının batini yönünü açıqlayaraq onu elmi biçimə salan dahi sufi mütəfəkkiri Mühyiddin İbn Ərəbinin əsərlərini bəşəriyyətə şərh edən, irfanın qaranlıq və təzadlı məqamlarını yeni ideya və düşüncələrilə fəlsəfi baxımdan izah edən Sədrəddin Konyəvinin dini-irfani baxışlarının təhlili olan hazırkı dissertasiya işi böyük elmi əhəmiyyətə malik aktual bir tədqiqat əsəridir.

**Mövzunun işlənmə dərəcəsi.** Konyəvinin əsərlərinin hər birinə onlarla şərh yazılmasına baxmayaraq bu əsərlər və alimin fikir dünyası yetərincə araşdırılmamışfə alimin dini-elmi baxışları haqqında elmi-tədqiqi əsərlərin sayı çox azdır.

Elmi işin mövzusunun indiyədək dünyada çox az araşdırılmış, Azərbaycanda isə ümumiyyətlə, ilk dəfə tədqiqata cəlb edilmiş bir mövzu olduğunu nəzərə alaraq, bu dahi şəxsiyyətin iç dünyasını, dünyagörüşünü, bəşəri düşüncələri və istəklərini özündə əks etdirən vəsiyyətnaməsnin xülasəsini burada verməyi məqsədəuyğun sayırıq.

Konyəvinin əsərləri sırf irfani mətləblər üzərində qurulmuş, irfani məfhum və istilahlarla doludur və bildiyimiz kimi, bu istilahlar və onların bəyanı üsulu olduqca qəliz, rəmz və sirlərlə dolu, çətin anlaşılan və çoxmənalıdır. Bu səbəbdən, Konyəvinin əsərlərinin və baxışlarının tədqiqi çox çətin və gərgin əmək tələb edən bir araşdırmadır. Bəlkə də bu səbəbdən, yəni dil və məfhum baxımından çox qəliz və çətin anlaşılan olması səbəbindən Konyəvinin əsərləri geniş tədqiqata cəlb edilməmişdir. Konyəvi özü də qeyd edir ki, onun əsərlərində bəyan olunan fikirləri anlamaq üçün onları dəfələrlə oxumaq və dərk etməkdə Allahı köməyə çağırmaq lazımdır. Bu səbəbdən onun əsərləri dəfələrlə oxunmalı, müxtəlif aspektlərdən araşdırılmalı və ortaq nəticə əldə edilməlidir. Tədqiqat işinin çətinliklərindən

biri də Konyəvinin əsərlərinin hamısının bizim ixtiyarımızda olmamasıdır ki, onlardan yalnız bəziləri ilə- ədəbiyyat siyahısında adı çəkilən əsərlərlə tanış ola bilmişik.

Bu tədqiqatlar,bir-iki alimin əsərləri istisna olmaqla, kiçik və müxtəsər araşdırmalar və məqalələrlə kifayətlənir. Sanballı tədqiqat əsərlərinə ABŞ-dan Vilyam Çittikin və Seyyid Hüseyn Nəsrin, Böyük Britaniyadan Stefan Hirtenşteynin məqalələrini aid etmək olar. Həmçinin, iranlı alim Məhəmməd Xacəvinin Sədrəddin Konyəvinin əsərlərinin ərəb dilindən fars dilinə tərcüməsində böyük xidməti olmuşdur. Öz əsərlərində müəyyən dərəcədə Konyəvi yaradıcılığına toxunmuş, həmçinin bu dahi alimin fikir dünyası haqqında müxtəlif məqalələr yazmış alimlərdən Türkiyədən Kamil Yılmaz, Əzmi Bilgin, Mikayıl Bayram, Əlaəddin Aköz, Mehmet Bayraktar, Mehmet Dalkılıç, Bayram Dalkılıç, Hüsamərttin Ərdəm və başqalarının[1], İranlı alimlərdən Qasım Kakayi, ərəb alimlərindən Bəkri Ələddin, Leyla Əbdülkərim Xəlifənin adlarını çəkmək olar.[2]Azərbaycanda Sədrəddin Konyəvinin həyatı və əsərləri hələ tədqiqata cəlb edilməmiş, müəyyən dərəcədə bu alimlə bağlı fikirlərə Möhsün Nağısoylu və Könül Bünyadzadənin[3]

---

[1]Bayram M. Fatih Sultan Mehmet`te Sadreddin Konevi Hayranlığı/1. Uluslararası Sadreddin Konevi Sempozyumu bildirileri. MEBKAM Yayınları 7. Konya: Desen Ofset Matbaatçılık, 2010, s.37-42: Bilgin A. Osmanlı kaynaklarında Sadreddin Konevi/1. Uluslararası Sadreddin Konevi Sempozyumu bildirileri. MEBKAM Yayınları 7. Konya: Desen Ofset Matbaatçılık, 2010, s.43-50; Erdem H. Sadreddin Konevide İlahi Menzileler / 1. Uluslararası Sadreddin Konevi Sempozyumu bildirileri. MEBKAM Yayınları 7. Konya: Desen Ofset Matbaatçılık, 2010, s.81-98; Yılmaz K. Anahatlarıyla Tasavvuf ve Tarikatlar. İstanbul: Ensar, 2007, 402 s.; Yılmaz K. Konevi`de Rüya Anlayışı / 1. Uluslararası Sadreddin Konevi Sempozyumu bildirileri. MEBKAM Yayınları 7. Konya: Desen Ofset Matbaatçılık, 2010, s.237-250;

[2]Hüseyni Tehrani. Nure məlaku 257, 258; Nəfəhati-ilahiyye, 93; Məbaniye fəlsəfeye eşq əz mənzəre sina və sədra, 34, 35; miftahul-üns, 194.

[3]Nağısoylu M. Sədrəddin Konyəvi İbnül-Ərəbi məktəbinin görkəmli nümayəndəsi kimi.Filologiya məsələləri. Bakı. 2011 №2s.227-233.

Konyəvi haqqındakı məqalələrində rast gəlmək olar.Türkiyənin Konya şəhərində Meram Bələdiyyəsinin 2007-ci ildə təsis etdiyi Konyəvi Araşdırmaları Mərkəzi 2007-ci ildə I Beynəlxalq Sədrəddin Konyəvi Simpoziumu təşkil etmişdir[1].

**Tədqiqatın obyekti və predmeti.** Konyəvinin əsərləri, əsasən də onun "əl-Füluk fi şərhil-Füsus" əsəri dissertasiya işinin əsas obyektidir. Alimin dini-irfani baxışlarının şərhi, həmçinin onun İbn Ərəbinin "Füsusül-hikəm" əsərinə yazdığı şərhin araşdırılması, buna uyğun olaraq bir sıra irfani məfhum və terminlərin şərhi tədqiqatın predmetini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatda əsas məqsəd VII/XIII əsrdə yaşamış görkəmli mütəsəvvif Sədrəddin Konyəvinin həyatı haqqında ümumi məlumat vermək, əsərlərini araşdırmaq və təsəvvüf aləmində yerini müəyyənləşdirmək, eləcə də alimin dünyagörüşü və dini-irfani baxışlarını açıqlamaq və şərh etməkdən ibarətdir. Göstərilən məqsədə çatmaq üçün qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

- İrfan və təsəvvüfün formalaşması haqqında ümumi mənzərə yaratmaq;
- İrfan təlimi haqqında əsas qaynaqlardan bəhs etmək;
-Təsəvvüf tarixinin üç əsas dövrünü təhlil etmək;
-İlkin arif və sufilər, həmçinin irfan elminin formalaşmasında rol oynamış alimlərin həyatı və əsərləri haqqında qısa məlumat vermək;
- Sədrəddin Konyəvinin müasirləri haqqında məlumat vermək;
-Sədrəddin Konyəvinin həyatı haqqında ümumi məlumat vermək;
-Sədrəddin Konyəvinin əsərlərinin yığcam şərhini vermək, onların mövcud əlyazma nüsxələrini aşkarlamaq və elmi-

---

[1]Bünyadzadə K. Azarbaycan`da Sadreddin-i Konevi / 1. Uluslararası Sadreddin Konevi Sempozyumu bildirileri. MEBKAM Yayınları 7. Konya: Desen Ofset Matbaatçılık, 2010, s.51-54.

paleoqrafik təsvirini vermək;
- Sədrəddin Konyəvinin dini-irfani fikirlərini şərh etmək;
- Sədrəddin Konyəvinin müəllimi olmuş görkəmli mütəsəvvif İbn Ərəbinin "Füsusül-hikəm" əsəri haqqında məlumat vermək;
- Sədrəddin Konyəvinin "əl-Fükuk fi şərhil-füsus" əsərini araşdırmaq, əsərin fikri əsasını təşkil edən rəmz və istilahları şərh etmək.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işində əsas mövzu kimi seçilmiş Sədrəddin Konyəvinin dini-irfani baxışları ilk dəfə olaraq tədqiqata cəlb edilmişdir. Dissertasiyada ilk dəfə olaraq Sədrəddin Konyəvinin "əl-Fükuk fi şərhül-füsus" əsəri geniş araşdırılmış, əsərin fikri əsasını təşkil edən rəmz və istilahlar şərh olunmuşdur. Burada Sədrəddin Konyəvinin müəllimi olmuş görkəmli mütəsəvvif İbn Ərəbinin "Füsusül-hikəm" əsəri haqqında məlumat verilməklə yanaşı, bu əsərdəki fikirlərin Sədrəddin Konyəvi tərəfindən şərhi geniş şəkildə izah edilmişdir. Araşdırmada Sədrəddin Konyəvinin əlimizdə olan bir sıra əsərlərinin şərhi, onların əlyazma nüsxələrinin elmi-paleoqrafik təsviri verilmiş, həmçinin Sədrəddin Konyəvinin sələfləri və müasirlərinin həyat və yaradıcılıqları təsəvvüf tarixi dövrlərinə uyğun olaraq şərh edilmişdir.

**Araşdırmanın nəzəri və təcrübi əhəmiyyəti.** Tədqiqat işinin emi-nəzəri müddəaları təsəvvüf və irfan mövzusunun təhlili baxımından əhəmiyyətlidir.

Dissertasiyanın materiallarından islam və irfan tarixi üzrə müəyyən mövzuların tədrisində istifadə edilə bilər.

**Tədqiqatın nəzəri və metodoloji əsasları.**Mövzu üzərində işləyərkən ənənəvi mənbəşünaslıq metodologiyasından, tipoloji təhlil üsulundan və tarixi-müqayisəli yanaşma prinsipindən istifadə edilmişdir.

**Tədqiqatın mənbələri.** Dissertasiyanın hazırlanmasında orta əsr müəlliflərinin tarixi-ədəbi əsərlərindən, təzkirə və başqa qaynaqlardan, irfanın əməli və nəzəri məsələlərini

işıqlandıran çoxsaylı mənbələrdən, təsəvvüf və irfana aid bədii irsin şərhlərindən, irfani terminologiyanın şərhinə aid əsərlərdən, Sədrəddin Konyəvinin əsərləri və onların mövcud əlyazma nüsxələrindən, Azərbaycan, İran, türk, rus və digər xarici ölkə ilahiyyatçı, filosof, şərqşünas və ədəbiyyatşünasların mövzu ilə birbaşa və ya müəyyən dərəcədə bağlı tədqiqatlarından və müxtəlif elmi-nəzəri ədəbiyyatlardan istifadə olunmuşdur.

**Tədqiqat işinin aprobasiyası.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun "Farsdilli əlyazmaların tədqiqi şöbəsin"də yerinə yetirilmişdir. Dissertasiyanın əsas elmi müddəa və nəticələri respublika daxilində və xaricində müxtəlif elmi dərgi və tematik toplularda, eləcə də elmi konfrans materiallarında dərc edilmiş məqalə və tezislərdə öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, iki fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılır, işin işlənmə dərəcəsi, məqsəd və vəzifələri, predmeti və obyekti müəyyənləşdirilir, metodoloji əsasları, elmi yeniliyi göstərilir, müəllifin əldə etdiyi elmi nəticələr sadalanır, nəzəri və praktiki əhəmiyyəti izah edilir, dissertasiyanın aprobasiyası ilə strukturu qeyd olunur.

**"İslam irfanı və onun Sədrəddin Konyəvi mərhələsi"** başlıqlıbirinci fəslin birinci yarımfəsli **"İrfanının təşəkkül tarixi və onun ilkin qaynaqları"** adlanır.Burada orta əsrlərdə islamın inkişafında böyük xidmətləri olmuş Mühyiddin İbn Ərəbinin şagirdi görkəmli sufi alimi Sədrəddin Konyəvinin mənsub olduğu islam irfanının, xüsusilə xilafətin yaranmasından sonra meydana çıxmış təsəvvüfün təşəkkül tarixi və qaynaqları şərh olunmuşdur. burada qeyd olunur ki, sufi alimləri

Cumeyd Bağdadi, Səhl İbn Abdulla Tüstəri, Osman Məkki, Əbu Hüseyn Nuri, Əbu Əli Rudbari, Əbu Bəkr Şibli, Əbu İshaq Kazeruni, Məhəmməd Qəzali, Seyid Şərif Çirqani təsəvvüfə bir-birindən fərqli tərif vermişlər.Burada "işari təfsir" adlanan təfsirlərdən ən məşhurlarından Səhl İbn Abdulla Tüstərinin "Təfsirül-Quranil-əzim", Əbdürrəhman Süləminin "Həqayiqü-təfsir", Əbülfeyz Əhməd ibn Məhəmməd Meybədinin "Kəşfül-əsrar və üddətül-əbrar", Nəcməddin "Eynül-həyat", Nəcməddin Razinin "Bəhrül-həqayiq", Şihabəddin Ömər Sührəverdinin "Nüqbətül-bəyan fi təfsiril-Quran", Mühyiddin İbn Ərəbinin "Təfsirü İbn Ərəbi", Sədrəddin Konyəvinin "Ecazülbəyan fi təfsiri-ümmul-quran", Nemətullah Naxçıvaninin "Fəvatihül-ilahiyyə vəl-məfatihül-qeybiyyə", İsmayıl Həqqi Bursəvinin "Ruhül-bəyan"[1]sufilər üçün Qurandan sonra ikinci qaynaq olan "işari hədislər"dən Əhməd Rifainin "Halətü əhlilhəqiqə" və Sədrəddin Konyəvinin "Şərhi-Hədisi-ərbəin" əsərləri göstərilir.Tədqiqat işində təriqət qurucularının irfani nəzəriyyəsini və görüşlərini bəyan edən kitab kimi Əbdülqadir Gilaninin "əl-Fəhtür-Rəbbani" və "Cilaül-xatir"və Əhməd Rifainin "əl-Bürhanül-müəyyəd" əsərləri misal göstərilib. Dissertasiyada Məhəmməd ibn Yəhya Taditinin "Kəlaidül-cəvahir fi mənaqibiş-şeyx Əbdülqadir", Mühyiddin İbn Ərəbinin "Mənaqibi-Məruf əl-Kərxi" və sair əsərlərin adları çəkilib. Əbu Əbdürrəhman Süləminin "Təbəqatüs-sufiyyə", Əbu Nuaym İsfahaninin "Hilyətül-övliya və təbəqatül-əsfiya", İbnül-Cövzinin "Sifatüs-safva", Fəridəddin Əttarın "Təzkirətül-övliya", Əbdürrəhman Caminin "Nəfəhatül-üns min həzəratil-qüds", "Əbdülvəhhab Şəraninin "ət-Təbəqatül-kübra", Yusif ibn İsmayıl Nəbhaninin "Cəmiu Kəramatil-övliya", Hüseyn Vəssafın "Səfinəyi-övliya" və bu kimi digər əsərlərdə verilmiş görkəmli mütəsəvviflərin həyatı, əsərləri, etiqad və baxışları araşdırılmışdır.Burada təsəvvüf elmini sistemləşdirərək bəyan edən,

[1]KaraM.Tasavvuf ve Tarikatlar Tarihi.İatanbul, 1995. s. 67. 387 s.

görkəmli sufi şeyxlərinin öz irfani həyatları və halları əsasında yazdıqları əsərlər sırasında ən mühümləri Haris əl-Mühasibinin "ər-Riayə li hüquqüllah", Məhəmməd İbn İshaq əl-Gülabadinin (Kələbazi) "ət-Təərrüf", Qüşeyrinin "Risalatül-qüşeyriyyə", Məhəmməd Qəzalinin "İhyayi-ülumid-din", Həkim Tirmizinin "Xətmül-ənbiya" və nəhayət, İbn Ərəbinin irfani özəlliyi ilə yanaşı, elmi xətt metodik xüsusiyyətlərə malik "Füsusül-hikəm" əsəri də sadalanır.

Ümumiyyətlə götürdükdə, təsəvvüf birbaşa islam dini ilə əlaqələndirilsə də, onun bir sıra nişanələri ayrı-ayrı mədəniyyətlərdə - şamanizm, zərdüştlük, buddizm və hind mistikası, yəhudilik və xaçpərəstlik, qnostizm və neoplatonizmdə müşahidə edilir. Lakin, bununla belə, təsəvvüf Quranın öz ruhundan və islam mühitindən doğan, eyni zamanda, özgə mədəniyyətlərin həmin ruha uyğun məqamları ilə uzlaşan və zənginləşən dini-mistik və əqli-mənəvi bir cərəyandır.[1]

Diqqətə çatdırılır ki, islamda, demək olar ki, ilk illərdə mövcud olan sufilik və asketizm geniş dini cərəyan şəklini aldı. Bu mərhələdə təsəvvüf zöhd və pərhizkarlıq şəklində yaranmışdır və ilkin sufilər ərəb xilafətinin mərkəzi və şərqi bölgələrində, əsasən, Mesapotomiya, Suriya və Şərqi İranda kiçik cəmiyyətlər şəklində fəaliyyət göstərməyə başladılar. Artıq XIII-XIV əsrlərdə bu cəmiyyətlər bütün islam dünyasında yayılaraq yeni şəkildə - hər birinin özünəməxsus nəzəriyyəsi, həyat tərzi, mənəvi-etik sistemi, irfani fəlsəfəsi olan təriqətlər şəklində formalaşmağa başladılar.Tədqiqat işinin mövzusu XIII əsr sufi alimi Sədrəddin Konyəvinin dini-irfani baxışlarının öyrənilməsinə həsr olunduğu üçün, təsəvvüf tarixini ilkin mərhələdən başlayaraq Sədrəddin Konyəvinin yaşadığı dövrü əhatə edən zaman çərçivəsində araşdırılmışdır.

Birinci fəslin ikinci yarımfəsli **"Zöhd dövrü və bu dövrün görkəmli nümayəndələri"** adlanır. Qeyd edilir ki, təsəv-

---

[1].GöyüşovN.Füzulinin sənət və mərifət dünyası. Bakı-Tehran:Süruş, 1997.

vüf tarixini öyrənən tədqiqatçılar bu tarixi əsasən üç dövr üzrə tədqiq edirlər. Bu dövrlər - zöhd, təsəvvüf və təriqətlər dövrüdür.Həmçinin qeyd edilir ki, təsəvvüf ilk olaraq bir "zöhd" (zahidlik, tərkidünyalıq) hərəkəti kimi meydana gəlmişdir. Zöhd dövrü Peyğəmbərin (s.) səhabələrindən Şəqiq Bəlxiyə qədər olan bir zamanı əhatə edir. "Zöhd" sözü ariflərin təfəkküründə dünyaya, dünyəvi nemətlərə, yəni Allahdan başqa hər bit şeyə etinasızlıq və onlardan imtina, həyatı namaz qılmaq, oruc tutmaq, Quran oxumaq, zikr və təsbihlə keçirmək anlamına gəlir.Təsəvvüf anlayışının zühuruna qədər davam edən və islamın ilk iki əsrini əhatə edən bu dövrün ən məşhur simalarından biri Üveys Qərəni olmuşdur. Onun Peyğəmbərə təsəvvürə sığmayan dərəcədə məhəbbəti olduğu söylənməkdədir. Bir sözlə, Üveys Qərəni təsəvvürdə Peyğəmbərə olan qiyabi sevginin timsalıdır.

Qeyd olunur ki, siyasi baxımdan Əməvilər dövründən başlayıb VII əsrin sonlarına qədər davam edən müddət, əsasən, zahidlik – zöhd həyatının bir hərəkət kimi meydana gəldiyi dövr sayılır. Bu dövrü bəzən "ikinci zöhd dövrü" də adlandırırlar. İkinci zöhd dövründə yaşamış arif və zahidlər sonrakı mütəsəvviflərin sələfləri hesab edilmişlər.

Fəslin ikinci yarımfəsli **"Təsəvvüf dövrü və bu dövrün görkəmli nümayəndələri"** adlanır və qeyd edilir ki, "Təsəvvüf" və "sufi" sözləri VII əsrin II yarısından sonra işlədilməyə başlamışdır. İlk dəfə təsəvvüf haqqındasöz deyən Məruf Kərxi olmuşdur."Təzkirətül-övliya" Məruf Kərxini "Allah eşqi ilə dolu bir insan" adlandıran Fəridəddin Əttarın fikrincə irfan aləmində özünəməxsus yeri və məqamı olan sufilərdəndir. İbn Ərəbi onu "cənnətin gözü" adlandırır.Burada göstərilir ki, təsəvvüf silsilələrinin, təriqətlərin çoxu özlərinin Mərufi Kərxiyə bağlı olduqlarını bildirmişlər. Bu təriqətlər aşağıdakılardır: 1) Mövləviyyə; 2) Sührəvərdiyyə; 3) Nurbəxşiyyə; 4) Mənəviyyə; 5) Nemətullahiyyə; 6) Zəhəbiyyə Kübrəviyyə; 7) Zəhəbiyyə İqtişaşiyyə; 8) Bəktaşiyyə; 9)

Rəfaiyyə; 10) Nəqşbəndiyyə; 11) Cəmaliyyə; 12) Konyəviyyə; 13) Qadiriyyə; 14) Piri-hacat.

Qeyd olunur ki, təsəvvüf dövrü VII əsrin sonlarından başlayaraq təriqətlərin zühur etdiyi XI əsrə qədər olan zamanı əhatə edən bir dövrdür. Təsəvvüf məhz bu dövrdə ortaya çıxmış, bir məktəb halına gəlmişdir. Təsəvvüf dövrünün ilk iki yüzilliyi, yəni IX-X əsrlər təsəvvüf tarixində görkəmli mütəsəvviflərin yetişdiyi bir dövr olaraq məlumdur. Tarixə müraciət edərsək, görərik ki, bu dövr siyasi, ictimai, elmi baxımdan çox mühümdür.

Mənbələrə əsaslanaraq qeyd edilir ki, məhz bu zaman çərçivəsində Abbasilər dövləti çox inkişaf etmiş, Bağdad elmi mərkəzə çevrilmiş, müxtəlif qəbilələr, hətta müxtəlif xalqlar bir-birinə qaynayıb-qarışmış və bu da bir-birindən çox fərqli mədəniyyətlərin bir araya gəlməsinə səbəb olmuşdur. İslam tarixində böyük rol oynamış məzhəblər – Hənəfi, Maliki, Şafei və Hənbəli məzhəbləri, həmçinin müxtəlif fəlsəfi cərəyanlar da bu dövrdə yaranaraq yayılmışlar. Şiəlik də bu dövrdə təkmilləşmiş və yeni cərəyanların yaranmasına yol açmışdır.[1]

Bu əsrlərdə irfan elmi fiqh,kəlam və hədis elmlərindən ayrılaraq müstəqil elm kimi formalaşdı.Dssertasiyada göstərilir ki, təsəvvüf dövrünün özəlliklərindən biri zöhd dövründən fərqli olaraq, əsasən Bəsrə və Kufədə deyil, islam dünyasının dörd bir yanında – Misir, Nişabur, Dəməşq və Bağdadda da görkəmli mütəsəvviflərin yetişməsidir. Suriyada təsəvvüf hərəkatının lideri Əbu Süleyman Darani idi. Əbu Süleyman Daraninin təliminin əsas məzmunu islami irfanın formalaşmasında böyük rol oynamış "ilahi eşq"dir.

Tədqiqat işində təsəvvüf tarixində ilk misirli mütəsəvvif Zünnun Misri hesab olduğu diqqətə çatdırılır və bildirilir ki[2] ,

---

[1]YılmazK.. Anahatlarıyla Tasavvuf ve Tarikatlar.İstanbul, 2007.s.122,402

[2] Кныш А.Д.Мусульманский мистицизм краткая история. Перевод с англ. М.Г.Романова.Москва-Санкт-Петербург: Диля, 204, 464 с.

bir çox ariflərin, o cümlədən Sədrəddin Konyəvinin düşüncə və nəzəriyyələrində gözə çarpan irfani anlayışların bir çoxunu (məsələn, "vəhdəti-vücud"u) Zünnun Misrinin kəlamlarında görmək olar. Adı Süvban ibn İbrahim, künyəsi Əbül-Feyz, ləqəbi Zünnün, nisbəsi əl-Misridir.Eyni zamanda diqqətə çatdırılır ki, IX əsrdə Nişabur kimi elmi-irfani mərkəzdə yetişən, irfani düşüncənin yayılması və təkmilləşməsində böyük rol oynayanlardan biri və ən məşhuru kimi Xorasan məktəbinin nümayəndəsi Bayızid Bistaminin adı ilə təsəvvüfdə "şükr" (heyrət, vəcd) adlanan mistik cərəyan ilə bağlıdır.[1] Göstərilir ki, tam adı Əbu Yəzid Teyfur ibn İsa ibn Adəm ibn Sürüşan Bistami-Bayəzid Bistami Əhməd Xizrəviyyə, Əbu Həfs və Yəhya Məaz ilə yaxın münasibətdə olmuşdur. Bayəzid Bistami irfana "fəna" anlayışını gətirən ariflərdən olmuşdur.

Bağdad təsəvvüf məktəbinin əsasını Bəsrə və Kufə sufilərinin ilkin nümayəndələrinin görüşləri əsasını da Məruf Kərxi qoymuşdur. İlkin Bağdad mütəsəvviflərindən danışarkən, əslən iranlı – Mərvli olan Bişr Hafi və Səri Səqətinin də adları çəkilmiş, Səri Səqətinin həqiqət və tövhid, əhval və məqamlardan bəhs etmişməşhur sufi, Bağdad məktəbinin ən güclü nümayəndəsi Cüneyd Bağdadininmüridi olduğu diqqətə çatdırılmışdır.Burada Sədrəddin Konyəvinin, eləcə də ustadı Mühyiddin İbn Ərəbinin irfani dünyagörüşünün formalaşmasında böyük təsiri olmuş islam alimlərindən Məhəmməd bin Əbdülcabbar ibn Həsən Niffərinin adı çəkilmiş və göstərilmişdir ki, vacibdir. Niffərini "İslam irfanı tarixinin əsrarəngiz nümayəndəsi adlandıran görkəmli şərqşünas A.C.Arberi Niffərinin əsərini İngilis dilinə tərcümə edərək orijinalla birgə 1935-ci ildə nəşr etdirmişdir.[2] Niffəri irfani məqamları şəri əməllərə - namaz, zəkat, Həcc, cihad və s.-yə ənzədir və bildirir ki, bu əməllərin hər birinin özünə məxsus elmi olduğu

---

[1]HəqiqətAbdur-rəfi. Tarixi-irfan və arifən.Tehran 1370. 750s. S. 310.

[2]Muhammadi.a.CabbarNiffari.The Mawaqif and Mukhatabat. London,1935

kimi,mənəviməqamların da hər birinin öz xüsusi üsulu və yolu mövcuddur. Niffəri təsəvvüfə "vəqf" ("məvaqif") anlayışını gətirmişdir.

Birinci yarımfəslin üçüncü bölümü "**Təriqət dövrü və bu dövrün görkəmli nümayəndələri"**adlanır.Bu yarımfəsildə göstərilir ki, Sədrəddin Konyəvinin yaşadığı dövr irfan və təsəvvüfün, dini-irfani təriqətlərin geniş yayıldığı, təsəvvüf tarixində "Təriqət dövrü" kimi məlum olan dövrün II yüzilliyinə təsadüf edir və təsəvvüf təfəkkürünün ən görkəmli simaları XI-XII əsrlərdə yetişmişdir. Bu dövrdə görkəmli islam alimi, şəriətə bağlılığı ilə seçilən, kəlam və fəlsəfə ilə yanaşı təsəvvüfə dərin bələd olan, bir çox əsas irfani qaynaqların müəllifi Məhəmməd Qəzalinin sistemləşdirdiyi əhli-sünnə təsəvvüfü qəzalidən sonra artıq bir məktəbşəklində fəaliyyət göstərirdi. Təriqət dövrü irfani cərəyanların ən güclüsü olan təriqətlərin yarandığı gündən dövrümüzə qədər olan bir zamanı əhatə edir, irfani düşüncənin ən güclü nümayəndələrinin yetişdiyi bu dövrdə irfan bir elm kimi formalaşmağa başladı. XI əsrdən etibarən sufilərə olan hörmət və inam get-gedə daha da artmağa başladı. XII-XIII təriqətlərin meydana gəlməsi dövrüdür və ilk təriqət qurucularından Bağdadda Əbdülqadir Gilani, Bəsrədə Əhməd Rifai, Türküstanda Əhməd Yasəvinin adları çəkilmişdir. Bu əsrlərdə yaranan və sonrakı dövrlərdə də təsiri və məşhurluğunu əldən verməyən, irfanın yayılması və inkişafında mühüm rol oynamış təriqətlərdən Kübrəviyyə, Sührəvərdiyyə, Əkbəriyyə, Şaziliyyə, Bədəviyyə və Mövləviyyənin adları diqqətə çatdırılmışdır.

Bu dövrün digər mütəsəvviflərindən biri İbn Ərəbinin müəllimi, ən məşhur təsəvvüf şeyxi, "Əbu Müdəyyən" adı ilə tanınan Şüeyb ibn Hüseyn Əbilhəsən olmuşdur. İbn Ərəbi bəzi əsərlərində onu "Şeyxüs-şüyux" və "Əbün-nəca" adlandırır.

Burada Əbu Müdəyyənin əsərlərindən "Ünsül-tövhid" və "Nüzhətül-mürid fit-tövhid"in adları çəkilmiş, onun Nizami Gəncəvi, Nizami Əruzi, Xaqani Şirvani, Əbül-Fərəc

Əbdürrəhman ibn Əli Cövzi, Şeyx Övhədəddin Kirmani, Şeyx Əbi Bəsir Əyyub, Şeyx Musa Sədrayi,Mühyiddin ibn Ərəbi və Əbu Əli Həsən bin Müslim Əlqadinin müasiri olduğu göstərilmiş, bir çox ariflərin, o cümlədən Mühyiddin Ərəbinin müəllimi olduğu qeyd edilmişdir.[1]

Qeyd edildiyi kimi, təsəvvüfün ilk dövrlərində sufilər öz baxışları, hiss və düşüncələrini qısa cümlələr halında bəyan etmişlər. Bu səbəbdən təsəvvüf ədəbiyyatının ilk nümunələri nəsr formasında yazılmışdır. Sonrakı illərdə də yazılan istər elmi-nəzəri, istərsə də irfani-ədəbi əsərlər nəsrlə və əsasən ərəb dilində yazılmışdır. İbn Ərəbi, Məhəmməd Qəzali, Əbu Həyyan kimi mütəsəvviflərin əsas əsərləri buna misaldır. Lakin X əsrdən etibatən təsəvvüf ədəbiyyatı fars dilində yazılmağa başladı. İrfan sahəsində farsca yazılan ilk elmi əsər, böyük ehtimalla, Əli ibn Osman Cüllabi Hücvirinin "Kəşfül-məhcub" əsəridir. Hafiz, Sənai, Əttar, Mölana, Sədi, Sultan Vələd kimi görkəmli şairlərin mənzum əsərləri irfan elminin daha da təkmilləşməsində və irfan fəlsəfəsinin geniş coğrafi məkanda yayılmasında böyük rol oynamışdır.

Əttarın XII əsrin II yarısı və XIII əsrin əvvəllərində çox geniş bir coğrafi məkanda xüsusi bir şöhrətə malik olduğu onun əsərlərinin aşağıdakılardan ibarət olduğu diqqətə çatdırılır. "İlahinamə", "Əsrarnamə", "Cəvahirnamə", "Xosrovnamə", "Müsibətnamə", "Məqamatət-tüyir" ya "Məntiqüt-teyr", "Şərhül-qəlb", "Cəvahirnamə", "Muxtarnamə" (rübailər toplusu). Qəzəl və qəsidələr divanı və "Təzkirətül-övliya". Adı çəkilən əsərlərdən ikisi – "Cəvahirnamə" və "Şərhül-qəlb" məsnəviləri əldə yoxdur. Şairin özünün dediyinə görə, o, bu əsərləri yandırmışdır. Əttarın ən məşhur mənzum əsəri "Məntiqüt-teyr" hesab olunur. Bu mərhələlər, Əttar nöqteyi-nəzərindən "tələb", "eşq", "mərifət", "istiğna", "tövhid", "heyrət" və "fəğrü fəna"dan ibarətdir.

---

[1]Cami Abdur-rahman. Nəfəhatül-ons. Tehran 1370. 1214s. S. 529.

XII əsrin ən böyük təriqətlərindən olan Sührəvərdiyyə təriqətinin banisi Əbu Nəcib Sührəvərdinin əsərlərinin əlyazma şəklində dövrümüzə gəlib çatdığı, bu əsərlərdən "Adabi-xəlvət", "Ədlül-əyan iləl-bürhan", "İrşadül-müridin və ittiha-düt-talibin", "Əsrarül-arifin və seyrüt-talibin", "əl-Əsmaül-ər-bəun", "Cəzbül-qülub ela məvasilül-məhbub", "Risaləti fis-süluk", "Rəştən-nəsaihül-imaniyyə və kəşfül-fəzaeihül-yuna-niyyə", "Əvarefül-məarif" əsərlərinin adlarının qeyd olunduğu göstərilir.

Bu bölümdə dövrün ən məşhur şeyxlərindən biri Əkbəriyyə təriqətinin qurucusu, "Şeyxi-əkbər" kimi məşhur olan görkəmli mütəsəvvif Mühyiddin ibn Ərəbi Sədrəddin Konyəvinin bir alim kimi formalaşmasında böyük rolu olmuş Ərəbi islam irfanını fəlsəfi baxımdan izah edən ilk sufi və mütəfəkkiri haqqında məlumat verilmişdir.

İbn Ərəbinin əsərlərindən "İnşaüd-dəvayir", "əl-Əhadi-sül-qüdsiyyə","ət-Təcliyyatül-ilahiyyə", "ət-Tənəzzülatil-Mövsiliyyə fi əsrarit-təharət vəs-salavat", "Töhfətüs-salikin", "Tər-cümanül-işvaq", "Kitabül-əsfar", "Ruhül-qüds fi muhasəbün-nəfs", "Divanüş-şeyxül-əkbər" və s. əsərlərin adları çəkilmiş, ən məşhur əsərlərinin "Fütuhati-Məkkiyyə" və "Füsusül-hi-kəm"dir.

Həmçinin Sədəddin Cüveyninin irfanın elmi və nəzəri məsələlərində özünəməxsus fikrə malik bir novator olduğu qeyd edilir və əsərləri sadalanır.Kübrəviyyə təriqətinin ünlü şəxsiyyətlərindən biri zamanın ən məşhur şeyxlərindən olan Nəcməddin Razinin əsərlərindən "Mirsadül-ibad", "Bəhrül-həqayiq", "əl-Məani fi təfsiri səbəül-məsani", "Kəşfül-həqayiq və şərhül-dəqayiq", "Təfsiri-Quran", "Minaratüs-saerin", "Mərmuzati-Əsədi", "Risalətüt-tüyur", "Risaleyi-əqlü eşq", "Səracəl-qülub", "Həsrətül-müluk" diqqətə çatdırılmışdır.[1]

Qeyd olunur ki, təsəvvüf ədəbiyyatının ən məşhur

---

[1]Nurbəxş Cavad. Mərdane-sufi. Tehran 1384. s.145. 185 s.

simalarından biri Mövləviyyə təriqətinin qurucusu, nəinki islam dünyasında, hətta bütün dünyada ən məşhur sufi şair hesab edilən Sədrəddin Konyəvinin müasiri və yaxın dostu olmuş Mövlananın adı Məhəmməd, ləqəbi Cəlaləddin olmuş, bütün dünyada "Mövlana", "Mövləvi" adı ilə məşhurlaşmışdır. "Mövləvi" adı "Mövlana" sözündən götürülmüşdür və bu ada yalnız IX əsrdən sonra rast gəlinir.[1]

Mövlananın Qəzəllər divanı, "Məsnəviyi-mənəvi", "Fihi ma fih", "Məkatib" və "Məcalisi-səbəə" əsərləri vardır. Ən məşhur əsəri "Məsnəviyi-mənəvi"dir. qəzəlləri Şəms Təbriziyə həsr olunmuşdur və "Divani-Şəms" adı ilə məşhurdur. "Məkatib", "Fihi ma fih" və "Məcalisi-səbəə" nəsrlə yazılmışdır.

Bu yarımfəsildə yekun olaraq qeyd edilir ki, təsəvvüfün təriqətlər çərçivəsində inkişaf mərhələsində çeşidli firqələr, qurumlar, davranış və hərəkətlər, düşüncə və təmayüllər yaranmışdır. Təkcə təriqət baxımından fərqli olan ariflərin deyil, hətta eyni təriqətə mənsub sufilərin də irfani görüşləri və etiqadlarında fərq olmuşdur... Lakin bütün bu fərqlərə və təzadlara baxmayaraq, həqiqi ariflərin arzusunda olduqları mənzil haqq və həqiqət, kamillik və əbədiyyətdir.[2]

Birinci fəslin **"Sədrəddin Konyəvinin həyatı və onun vəsiyyətnaməsi"**adlanan ikinci yarımfəslində qeyd olunur ki, orta əsr islam dünyası alimləri, şairləri, şeyx və arifləri haqqında müxtəlif təzkirələr, tarixi əsərlər və bir sıra digər mənbələrdən müəyyən məlumat əldə etmək mümkündür.

Mənbələrə əsasən qeyd olunur ki, Sədrəddin Konyəvinin tam adı Əbülməali Məhəmməd ibn İshaq ibn Məhəmməd ibn Yusif ibn Əli Konyəvi, ləqəbi "Şeyxi-Kəbir" olmuşdur. S.Konyəvinin məşhurüləma və şeyxlərindən və ümumiyyətlə, irfan aləmində yüksək məqama sahib olmuşdur. İbn Ərəbi

[1]Cami Abdurrahman .Nafahatul-uns.Tehran 1370. s. 530, 1214 s.
[2]Göyüşov.N. Füzulinin sənət və mərifət dünyası. Bakı-Tehran 1997. 386s.

düşüncəsinin əsaslarını, onun dünyagörüşünü İran təsəvvüfünə daxil edən ilk şəxs məhz Konyəvi olmuşdur.

Sədrəddin Konyəvinin 1209-cu ildə Kiçik Asiyada – Malatyada dünyaya gəldiyi qeyd olunur. Göstərilir ki, uşaqlıqdan elmə xüsusi həvəs göstərən Sədrəddin konyəvinin təlim-tərbiyəsi ilə artıq görkəmli alim, sufi şeyxi ibn Ərəbi məşğul olmağa başlamış, ona müəllimlik etmişdir.

Bu yarımfəsildə Sədrəddin Konyəvinin vəsiyyətnaməsindən bəhs edilərək öz dostlarına və yaxınlarına vəsiyyəti göstərilir ki, onu ümumi müsəlman qəbristanlığında dəfn etsinlər. Fəlsəfi kitablarını satıb pulunu sədəqə versinlər. Tibbi, fiqhi, təfsir, hədislərlə bağlı və buna bənzər digər kitablarını Dəməşqə vəqf edir. onların hamısı orada olan və Allaha yaxınlıq üçün elm öyrənənlərə verilsin.

Bu yarımfəsildə Sədrəddin Konyəvi və onun əlyazma nüsxələri haqqında şərhlər verilir və göstərilir ki, hər bir xalqın ədəbi-mədəni irsi və mənəvi sərvətləri sırasında bu xalqın tarixi, mədəniyyəti, dini baxışları, ədəbiyyat və incəsənətini özündə əks etdirən əlyazma kitabları xüsusi əhəmiyyətə malikdir. Əsrlər boyu üzü katiblər tərəfindən köçürülərək yayılan bu əlyazmaların mühafizə edilərək saxlanması, tədqiqi və nəşri xalqın keçmişi və gələcəyini düşünən hər bir ziyalı və araşdırıcının mühüm vəzifəsidir.

Yarımfəslin **“Sədrəddin Konyəvinin əsərləri və əlyazmanüsxələri”**bölümündə Sədrəddin Konyəvinin əsərlərinin dünyanın müxtəlif muzey və kitabxanalarında saxlanılan əlyazma nüsxələri təsəvvüf və təfəkkür tariximizin araşdırılmasında bir ilkin qaynaq kimi çox dəyəqli və əhəmiyyətli mənbələrdən olduğu vürğulanır.

Konyəvinin əsərlərinin sayı 10-dan artıqdır. Tədqiqat işinin bu yarımfəslində Konyəvinin bəzi əsərləri haqqında qısa məlumat və bu əsərlərin bir sıra əlyazma nüsxələrinin elmi-paleoqrafik təsviri verilmişdir.

1. “Əl-fükuk fi şərhül-füsus”. 2. “Ən-nüsus fi təhqiqi-

tövril-məxsus". 3. "Müsahübül-üns beynül-məqul vəl-məşhud fi şərhi Çiftahi-qeybül-cəmül-vücud". 4. Miftahi qeybül-cəmül-vücud" adlanan kitab elmi irfan və mərifəti-ilahi haqqında yazılmış ən böyük və ən mühüm əsər sayılır. 5. "Nəfəhat-ilahiyyə". 6. "Ecaxül-bəyan fi təvili-ümmül-quran". 7. "Üsuli-əhli-təsəvvüf". 8. "Ər-Risalətül-müfsəhə ən müntəhiyəl-əfkar və səbəbe ixtilafil-üməm". 9. "Ət-təvəccühül-utemməl-övla nəhvəl-Həqq". 10. "Ər-risalətəl-mürşidə fit-təsəvvüf fi keyfiyyətit-təvəccühül-utemməl-övla nəhvəl-Həqq". 11. "Ər-risalətül-hadiyə". 12. "Şərhül-əsmaül-hüsna, həqayiqül-əsma". Ərəb dlində yazılmış bu əsərdə Konyəvi "əsmai-hüsna"nı xüsusi bölmələr əsasında şərh etmişdir.

**Dissertasiyanın II fəsli "Sədrəddin Konyəvinin dini-irfani və ontoloji baxışları" adlanır.** Bu fəslin birinci yarımfəsli **"Sədrəddin Konyəvinin dini-irfanibaxışları: mənzillər və kəşflər"** adlanır. burada göstərilir ki, Sədrəddin Konyəvinin – dini-irfani baxışları ilə sıx bağlı olan islam mədəniyyətində mühüm yer tutan, çox mürəkkəb və zəngin əqli-mənəvi və əxlaqi dəyərlərə malik olan irfanın əsaslarından bəhs edilmiş və göstərilmişdir ki, irfan bir elm olaraq iki bölümdən təşkil olunmuşdur: əməli irfan və nəzəri irfan.

Əməli irfan insanın Haqqa doğru seyr və sülukundan, bu yolda insanın üzləşdiyi hallar və məqamlardan ibarətdir ki, "yəqzə" ilə, yəni oyanışla başlayır və Haqqa çatma, yəni "tovhid"lə başa çatır.Sədrəddin Konyəvinin həyatı və keçdiyi "hallar"dan bəhs edilir.

Nəzəri irfan dünyaya təsəvvüf prizmasından baxan xüsusi dünyagörüşüdür. Arifin dünyaya baxışı filosofların baxışından fərqlidir. Ariflərin cənab Haqqa, varlığa, Allahın adları və sifətlərinə baxışı şühudidir.

İrfanda ən mühüm məsələ "vəhdəti-vücud" anlamıdır və bu anlam ariflərin düşüncə istiqaməti hesab edilir."Vəhdəti-vücud"un təsəvvüf istilahı kimi mənası belədir: bu dünyada bir həqiqət, "vahid həqiqət" olaraq bir varlıq mövcuddur.

“Vəhdəti-vücud” təliminə görə, bu birlik və yeganəlik arifin yaşaya-yaşaya, mənəvi sınaqlardan keçə-keçə yetişdiyi bir mərtəbədir.[1]

Burada qeyd edildiyi kimi Sədrəddin Konyəvinin “mənzil”, “kəşf” və “vəhdəti-vücud” haqqında fikirləri irfanın ən sirli məqamlarını açıqlamaqla yanaşı, təsəvvüfün İbn Ərəbinin fikir prizmasından təhlilini verir.

Dissertasiyada göstərilir ki, irfan nəfsin təzkiyəsi (paklanması) yolu ilə əldə edilən bir dərkdir. Bu məqsədə nail olmaq üçün salik irfani terminologiyada “mənzil” adlandırılan mərhələlərdən keçməlidir. Əksər ariflərin qəbul etdikləri 8 mənzil aşağıdakılardır:

1. Tövbə; 2. Vərə; 3. Zöhd; 4. Fəriq; Səbir; 6. Təvəkkül; 7. Rza; 8. Təslim. Üçüncü mənzil: irfani hallar. Bu mənzilə “qeybi varidlər” də deyilir. Bu irfani halların sayının 10 olduğu göstərilmişdir.: 1. Müraqibə; “qürb; 3. Məhəbbət; 4. Xof; 5. Rica; 6. Şövq; 7. Üns; 8. İtminan; 9. Müşahidə; 10. Yəqin.

Bu tədqiqat işində araşdırılmışdır ki, Sədrəddin Konyəvi “şəni-ilahi”nin ən böyük təzahürünü kamil insanda (insani-kamildə) görür. Bu insan Allahın izni ilə istədiyi hər bir işi görə bilər və əslində o, Allahın xəlifəsi və canişinidir.

Burada şərh olunur ki, “kəşf” lüğətdə, “hicab və pərdənin götürülməsi” deməkdir və irfani dildə, “pərdənin o tərəfində olanlardan agahlıq” mənasındadır. Bu terminə Sədrəddin Konyəvinin əsərlərində çox rast gəlinir”.

Kəşf iki növ: zahiri və mənəvi. Növlər haqqında bəhs edilir və bildirilir ki, Sədrəddin Konyəvinin ən çox işarə etdiyi mərhələlərdən biri də məsələ islam təsəvvüfündə ən mühüm mövzulardan biri hesab olunur.

Allahın hər bir adının elmi-ilahidə öz şəkil vardır və bu şəkillərə “əyani-sabitə” deyilir. “Vəhdəti-vücud”a görə gerçək varlıq yalnız Haqqa aiddir, başqa cism və varlıqlar Tanrı

---

[1]Göyüşov N. Təsəvvüf anlamları və dərvişlik rəmzləri. Bakı,2001. 240s.

nurunda zahir olan təcəlli nişanələridir.

Dissertasiyada göstərilir ki, Fransanın Sarbonna Universitetinin professoru Henri Korben (1903-1978) müxtəlif məzhəblər arasında şiəliyi daha üstün hesab edir.Korbenin fikrincə, islamın batini mahiyyəti şiəlikdir və əqli dəlillər də bunu sübut edir.

Göstərilir ki, Konyəvi insanları üç qrupa ayırır: Birinci qrupa aid olanlar "nazil" (dəyərsiz) insanlardır ki, onların qəlbləri möhürlənmişdir və onlar, misal aləmi ilə əlaqə yarada bilmirlər. İkinci qrupa aid olanların qəlbi bəzən səfa ilə dolaraq maddi bağlılıqlardan azad olur və onlar misal aləmi ilə əlaqə yarada bilirlər. Üçüncü qrupa aid olan insanlar hədisi nəfsin nişanələrilə üzləşir. Onlar Allah tərəfindən göndərilmiş "sadiq yuxu" görürlər.

İkinci fəslin **"Sədrəddin Konyəvinin ontoloji baxışları"** adlanan ikinci yrımfəslində vücud, xəbatir, aşiq və məşuqun sirri, cismin əhəmiyyəti, ilqanın növləri, xəlvət və tənhalığın gözəllikləri, əsmail-ilahi Allahın elmi-ilahi vücud albm, sübut və vücud, zikr, hərflər və sözlər insanın həqiqi elminin məqamlarından bəhs edilir.

Burada "vəhdəti-vücud"un dahi mütəfəkir Mühyiddin ibn Ərəbinin adı ilə əlaqələndirilməsi göstərilir. Lakin bir sıra alim və tədqiqatçılar belə bir nəticəyə gəlmişlər ki, "vəhdəti-vücud", ya "panteizm" ibn Ərəbidən daha əvvəl, Eynülqüzzat Miyanəci tərəfindən daha sistemli şəkildə araşdırıldığını "vəhdəti-vücud" bir nəzəriyyə kimi hələ Bəyazid Bistami, Cüneyd Bağdadi, Mənsur Həllac kimi ilk sufilərdə mövcud olduğu qeyd edilir. Göstərilir ki, Əfifinin fikrincə, Cüneyd Bağdadi və Bəyazid Bistami "vəhdəti-vücud"dan deyil, "vəhdəti-şühud"dan (mövcudların və ya şahidlərin vəhdətindən) bəhs etmiş və İbn Ərəbinin nəzəriyyəsinə bənzər bir fəlsəfə formalaşdırmağa can atmamışlar.

Həqiqətin vahid vücud olub-olmaması haqqında üç nəzəriyyə mövcuddur:

1. “Vəhdəti-məhz” (xalis vəhdət) – bu nəzəriyyəni bəzi filosoflar irəli sürmüşlər; 2. “Kəsrəti-məhz” (xalis kəsrət) – Məşai filosoflarının nəzəriyyəsi; 3. “Kəsrətdə vəhdət və vəhdətdə kəsrət”.

Konyəvi üstünlük, məziyyət, ləngimə, çoxluq və kəsrəti mövcudatın hüdudlarından bilir və belə düşünür ki, Haqqın vücudunun nuru mövcudata çatmazsa, demək, mövcudat tamamən yox halında olar.

1.“Vücud”, “xəvatir” Konyəvinin təsəvvüfdə irəli sürdüyü bəhslərdən biri kimi göstərilir və qeyd olunur ki, Molla Sədranın “hikməti-mütəaliyyə” fəlsəfəsində bəyan etdiyi və “hərəkəti-cövhəri” adlandırdığı bəhsdir ki, bu bəhs Konyəvinin irfani baxışlarının əsasını təşkil edir.

Burada hərəkət və dəyişiklik bəhsi Sokrat dövründən əvvəl də diqqəti cəlb etmiş bəhslərdəndir. Heraklit aləmdə mövcud olan hər bir şeyin daimi hərəkət və dəyişməkdə olduğunu bildirir.

2. Aşiq və məşuqun sirrinin, eşq və məhəbbətin irfani məzmunlar sırasında xüsusi yeri olduğu Sədrəddin Konyəvi də bu məsələyə çox diqqət yetirərək, ona verilən ilhamların məhz eşqin nəticəsi olduğu nəzərə çatdırılır.

Göstərilir ki, bütün varlıqların bir məşuqu və məhbubu vardır ki, ona çatmaq hər kəsin məqsəd və hədəfidir və hər kəs ona doğru hərəkətdədir. Eşqin vüsəti o qədər genişdir ki, xaliqdən tutmuş məxluqun ən zəif nümayəndəsini belə əhatə edər.

3. Cismin əhəmiyyətinə gəldikdə qeyd olunur ki, Konyəvi yalnız insanın ruhunu mühüm bilib, bədəninə (cisminə) hörmət qoymayanları tənqid edir. Göstərilir ki, Allah elçilərinin bəyan etdikləri həqiqətlərin insanlar tərəfindən anlaşılması və qəbul edilməsi bu baxımdan insanlar bir neçə dəstəyə bölünürlər. Birinci dəstə Allah peyğəmbərlərinin bəyan etdiklərini istər anlayaraq, istərsə də anlamadan qəbul edənlərdir. Konyəvi bu insanların hamısını islam əhli hesab edir, ikinci dəstə qəti

surətdə inkar edənlər, yəni kafir və üsyankarlardır. Digər bir dəstə bəzi peyğəmbərlərə inanır, bəzilərinə inanmır və yaxud peyğəmbərlərin bəzi sözlərini qəbul edir, bəzilərini qəbul etmirlər. Onlar da kafirdirlər.

Tədqiqat işində "İlqa"nın (İlqa, yəni qəlbə gələn xitab) mövcud iki növü də izah edilir: 1. Haqqdan və mələklərdən gələn, doğru olan ilahi, rəhmani və rəbbani xitab; 2. Nəfsdən gələn, doğru olmayan nəfsani və ya şeytani xitab.

İlahi "ilqa"da çox əzəmətli ləzzətlər mövcuddur ki, bütün insan vücudunu bürüyər və bəzən insan uzun müddət yeməyə-içməyə ehtiyac hiss etməz.

Burada xəlvət və tənhalığın gözəllikləri, tənhalıq və xəlvətin, yəni xəlqdən uzaqlaşaraq Haqqa yaxınlaşmağın nəticəsi Haqq-Təalaya çatmanın yolları və üsullarını əldə etməyi düşünmək, bu düşünmənin nəticəsi və səmərəsi Haqqın zikri, zikrin də nəticəsi Haqqı dərk etmək kimi təqdim edilir.

Dissertasiyada "Əsmai ilahi" – Allahın adları çəkildikdə diqqətə çatdırılır ki, Sədrəddin Konyəvinin bir çox əsərlərində "əsmai-ilahi" yaradılış bölümünə aid olaraq, hər bir ad aləmdə özünəməxsus iş və təsirdən qaynaqlanır.

İkinci fəslin **" İbn Ərəbinin "Füsusül-hikəm" əsərinin şərh və tərcümələri.** adlanan üçüncü yarımfəslində göstərilir ki, irfani mətnlər sırasında öz mürəkkəbliyi və çətinliyi ilə seçilən "Füsusül-hikəm"ə bir sıra şərhlər yazılmışdır ki, onlardan ən məşhuru İbn Ərəbinin tələbəsi və oğulluğu olmuş Sədrəddin Konyəvinin "Əl-fükuk fi şərhil-Füsus" əsəridir.

"Füsusül-hikəm"in daha bir şərhi XIII əsrdə Müəyyədəddin Cündi tərəfindən yazılmışdır.

"Füsusül-hikəm"ə fars dilində yazılmış ilk şərh Baba Rüknəddin Şiraziyə məxsusdur. Rüknəddin Şirazi Cündinin, Kaşaninin və Qeysərinin şərhlərindən bəhrələnməklə, fars dilində "Nüsusül-xüsus fi tərcümətül-Füsus" adlı əsəri yazmışdır. Müəllif "Nüsusül-xüsus"dan sonra İbn Ərəbinin "Füsusül-hikəm" əsərinə daha bir şərh – "Məlumül-füsus min məfhumül-

Füsus" adlı əsəri yazmışdır ki, böyük ehtimalla o əsər də fars dilində olmuşdur.

Şirazidən sonra Mir Seyidəli fars dilində "Füsusül-hikəm"in böyük bir hissəsini şərhlə tərcümə etmişdir. Fars dilində daha bir şərh Xacə Məhəmməd Parasa məxsusdur.

Fars dilində dəyərli tərcümələrdən biri Tacəddin Hüseyn ibn Həsən Xarəzminin ilk dəfə İranda 1985-ci ildə nəşr edilmiş əsəridir ki, bu əsər Nəcib Mayil Herəvi tərəfindən redaktə və nəşr edilmişdir. Öz şeirlərində istifadə etmişdir.

Müasir dövrdə "Füsusül-hikəm" A.V.Smirnov tərəfindən 1993-cü ildə tam şəkildə rus dilinə tərcümə edilmişdir. Həmçinin, Türkliyədə, Əkrəm Dəmirçi 2006-cı ildə və Əbdülhəlim Şənər 2007-ci ildə əsəri türk dilinə tərcümə etmişlər.Əsərin ingilis dilində də tərcümələri mövcuddur. Belə tərcümələrdən Aişə Byulinin və R.V.J.Austinin tərcümələrini göstərmək olar.

İbn Ərəbi yaradıcılığı digər mütəsəvviflərin yaradıcılığından çox fərqlidir. Bu dahi mütəfəkkirin əsərlərinin əsas qaynağı Allah-Təalanın ona bəxş etdiyi xüsusi ilham olmuşdur.

İkinci fəslin dördüncü yarımfəsli "**Sədrəddin Konyəvinin İbn Ərəbinin "Füsusül-hikəm" əsərinə yazdığı şərh"** adlanır. Diqqətə çatdırılır ki, aləmdə hər bir şey bir surət, məkan və ya təcəlligahdan ibarətdir.Onda İlahinin bir və ya bir neçə sifəti təzahür olunur. Hər bir şey, hər bir varlıq "əsmai-ilahi"dən bir addır və onun həqiqəti və varlığı Allahdan nəşət alır.

İbn Ərəbi "Füsusül-hikəm"də peyğəmbərləri Allahın asimandan xüsusi bir hədəf üçün və ilahi xəbərləri bəşəriyyətə çatdırmaq üçün yerə göndərdiyi xüsusi ayələr hesab edir. Alim peyğəmbərləri ilahinin külli adlarının təzahürünün birbaşa təcəlligahı hesab edir və bu səbəbdəndir ki, alim hər "fəss"i bir ilahi sözlə hər hansı bir peyğəmbərə aid etmişdir.

Bu yatımfəsildə göstərilir ki, "Füsusül-hikəm"in hər "fəss"inin adı üç hissədən təşkil olunmuşdur: "fəss", "kələmə" və "hikmət"."Fəss": "Üzük qaşı" mənasını daşıyır. Konyəvi "fəss"i peyğəmbərin ruhu vasitəsilə gerçəkləşən elmlərin cöv-

həri və məzhəbi adlandırır. Tam həqiqi mənada isə “kəlmə” peyğəmbərin özünə deyilir – Hz. Musaya Qurani-Kərimdə “Kəlimətullah” deyildiyi kimi.[3]“Hikmət”: İslami və irfani əsərlərdə ən çox işlənən məfhumlardandır, çünki hikmət birbaşa həqiqətlə (Haqla) bağlıdır. Qurani-Kərimdə hikmət, istərsə də dolayısı ilə peyğəmbər vasitəsilə Allahdan nəşət alır.

“Füsusül-hikəm”in ən məşhur şərhi Sədrəddin Konyəvi tərəfindən yazılmışdır və bu fakt, demək olar ki, bütün dünya alimləri tərəfindən qəbul edilmişdir. Sədrəddin Konyəvi “Füsusül-hikəm”ə yazdığı şərhlə müəlliminin irfani-fəlsəfi fikirlərinə yeni can bəxş etmiş və əsərdəki anlaşılmaz, gizli məqamları aydınlatmağa çalışmışdır. “Füsusül-hikəm”in Sədrəddin Konyəvinin əli ilə yazılmış və İbn Ərəbi tərəfindən nəzərdən keçirilmiş bir nüsxəsi İstanbulda “Türk və İslam Əsərləri Muzeyində” saxlanılır.

Konyəvinin “Füsusül-hikəm”ə yazdığı şərhini “əl-Fükuk” adlandırmasına gəlincə, o, bunu ustadını sözügedən əsərindəki ağzımöhürlü sirr və mənaları açıb üzə çıxarması ilə izah edir. Çünki “fəkk” sözü “sirri faş etmək”, “batini üzə çıxarmaq”, “daxildən qıfıl vurulmuş bir şeyi açmaq” mənalarını verir.

Bu yarımfəsildə peyğəmbərlərin risalət vəhdəti baxımından Yaradana bağlılığının doğruluğuna şəkk yoxdur. Onlar arasındakı bərabərsizlik yalnız onların mənşəyi, onların ilahinin xüsusi ad və sifətlərinə bağlılıqdan qaynaqlanır, belə ki, ilahi “əsma” (ad) və sifətlərin təsir dairəsi, təsir və təsir qüdrəti baxımından fərqi aşkar göstərilir.Sədrəddin Konyəvinin və müəllimi Mühyiddin İbn Ərəbinin öz əsərlərində işarə etdikləri və düşüncələrinin məhvəri olan təməl nəzəriyyə bütün kainat və məxluqatın ilahinin təzahürü, təcəllisi və ya feyzi olmasıdır.

**“Nəticə”** irəli sürülən tövsiyyələr və müəllifin gəldiyi qənaətlərdən ibarətdir.

---

1Qeysəri Davud bin Muhammad.. Şərhe füsul-hükəm. Tehran,1382. 356 s.

Dissertasiyanın əsas məzmunu müxtəlif məcmuələrdə nəşr olunmuş aşağıdakı məqalələrdə öz əksini tapmışdır.

1. Sədrəddin Konyəvinin dini-irfani baxışları. Bakı, “Dövlət və din” jurnalı 2011.

2. Sədrəddin Konyəvinin əsərləri və onların əlyazma nüsxələri. AMEA Fəlsəfə və hüquq İnstitutu, “Elmi əsərlər” jurnalı 2011.

3. Sədrəddin Konyəvinin “Füsusül-hikəm”ə yazdığı şərh. Orta əsr əlyazmaları və Azərbaycan mədəniyyəti tarixi problemləri. XII Respublika elmi konfransının materialları. Bakı, 2011.

4. Sədrəddin Konyəvinin həyati əsərləri. “Mədəniyyət dünyası” jurnalı 2013.

5. Садр ад-Дин Коньяви и его современники. Актуальные проблемы гуманитарных и естественных наук. Москва 2013.

6. Sədrəddin Konyəvinin ontoloji baxışları. Bakı Dövlət Universiteti İlahiyyat fakültəsinin elmi məcmuəsi. Bakı 2014.

7. Садр ад-Дин Коньяви и его современники. Вестник Казахского Национального Университета им. Аль-Фараби, серия Востоковедения, 2016.

**Golshani Seyid Jamal Mehdi**

**Religious-philosofik looks of Sadreddin Konyavi**

**SUMMARY**

In dissertation is made systematic investiqation of the relations of religios mistic looks of Sadreddin Konyavi, who owned a significant place among the Islamic scholars of VII century.

The work consist of preface, two chapters, conclusion and bibliography.

First chapter called “The History of Enhancement of Islamic Rationality and the period of Sadreddin Konyavi in it” are described the sources of enhancing notions, which were formed partially from the formation of the caliphate, related to the views of famous Sufi scientist Sadreddin Konyavi, who is considered to be a student of Muhyiddin Ibn Arabi who had great merits in the development of Islam in Middle Ages.This chapter gives information about Sadreddin Konyavi's life, testament, works and manuscripts, and it is noted that some information about the medieval Islamic world scholars, poets, sheikhs and sages can be obtained from various historical and other sources.

The second chapter is called “The Religious-rational and ontological views of Sadr al-Din al-Qunawi”. Here, Sadreddin Konyavi's interpretation of Ibn Arabi's "Fusus ul-Hikam" is given, it is noted that Muhyiddin Ibn Arabi's "Fusus ul-Hikam", who is known under the names "Shaykh Al-Akbar" and "Khatamul-Owliya", is one of the most famous works not only in the Islamic world, but all also worldwide.

“Conclusion” consists of recommendations and inferences made by the author.

**Гюльшани Сайид Джамал Мехди оглы**

**Религиозно–философские воззрения Садраддина**

**Коньяви**

# РЕЗЮМЕ

Данная диссертационная работа посвящена последователю мистических воззрений Садраддина Коньяви, занимающего видное место среди исламских ученых XIII века.

Диссертационная работа состоит из введения, двух глав, заключения и библиографии.

В первой главе, называющейся «История создания исламского мистицизма, и место Садраддина Коньяви в этой области», описываются источники возникновения суфизма, особенно образованными после образования халифата, относящиеся взглядам известного суфийского ученого Садраддина Коньяви, который считается учеником Махьяддина Ибн Араби имевшего большие заслуги в развитии ислама в период средневековья.В этой главе описывается жизнь, завещание, произведения и рукописи Садраддина Коньяви, подчёркивается то, что дополнительные сведения и материалы об ученых, писателях исламского мира средневековья, шейхах и мудрецах, о биографиях и исторических произведениях можно также получить определенную информацию в различных источниках.

Вторая глава назвается «Религиозно- мистические и антологические воззрения Садреддина Коньяви»,где рассматриваютсявоззрения С.Коньяви, по произведению Ибн Араби «Фусус уль-Хикам». Отмечается, что «Фусус уль-Хикам», Махьяддина Ибн Араби более известного под псевдонимами Шейхуль Акбар и Хатем-уль Овлия –посвящены мистицизма является популярным не только в Исламском, но и во всем мире.

В «Заключении» обобщены результаты, полученные в диссертации.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**

**ИНСТИТУТ РУКОПИСЕЙ им. МУХАММЕДА ФИЗУЛИ**

*На правах рукописи*

**САЙИД ДЖАМАЛ ГЮЛЬШАНИ МЕХДИ оглы**

# РЕЛИГИОЗНО - ФИЛОСОФСКИЕ ВОЗЗРЕНИЯ САДРАДИНА КОНЬЯВИ

Специальность:7213.01-Религиоведение

**АВТОРЕФЕРАТ**

**Диссертации на соискание ученой степени доктора философии по философии**

**БАКУ-2018**